## Psixologiyanın tədrisi məsələləri: problemlər və perspektivlər

**Simuzər Mürvət qızı Qafarova**
*ADPU-nun nəzdində Azərbaycan*
*Dövlət Pedaqoji Kollecinin metodisti*
**E-mail:** simuzer_gafarova@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.S. Əliyev,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** psixologiya, distant təhsil, metodika, tədris, kompüter, tələbə, proqram
**Ключевые слова:** психология, дистанционное образование, методика, обучение, компьютер, студент
**Key words:** psychology, distance education, methodology, teaching, computer, student

XXI əsrin psixologiya əsri olacağını qeyd edənlər həmin əsrin 20-ci ilində bütün dünyanı cənginə alan, xeyli sayda insanın ölümünə yol açan və bununla da insanlığa qorxu xofu aşılayan COVİD-19 pandemiyasını hesaba qatmamışdılar. Məhz həmin andan etibarən psixologiyanın istər nəzəri, istərsə də tətbiqi anlamda əhəmiyyəti daha da artdı. Bütün dünyada insanların sosial idrakında köklü dəyişikliklər baş verdi. Sosial yaşamın bütün sahələrində insan münasibətləri yeni mərhələyə qədəm qoydu, işgüzar münasibətlərdə innovativ yollar sınanmağa başladı. Dəyişikliklər təhsil sahəsindən də yan keçmədi, bəlkə də, ən radikal yeniliklər məhz adı çəkilən sahədəki münasibətlərdə boy göstərdi.

Distant təhsil həyatın ayrılmaz bir parçasına çevrildi. Aydındır ki, psixologiyanın tədrisi də distant formada həyata keçirilməyə başlandı. Məhz ilk olaraq, bu məqamda ortalığa çıxan məsələlərin düzgün həll oluna bilməsi üçün günümüzün reallığı kimi qəbul edilən distant təhsil haqqında bəzi suallara cavab verməyimiz məqsədəuyğun olar.

Hələ vaxtilə V.N. Karandaşev yazırdı ki, "müasir təhsilin inkişafının vacib meyllərindən biri təlimin müxtəlif distant texnologiyalarının geniş tətbiq edilməsidir" (5, s. 161).

Bu gün təhsil, əsasən, distant formada online rejimdə baş verir. Bəs distant təhsil texnologiyaları deyəndə nəyi başa düşməliyik? Bu suala V.N. Karandaşev öz kitabında belə cavab verir ki, "distant təhsil texnologiyaları deyəndə öyrənən və pedaqoji işçinin vasitəli (məsafədən) yaxud tam vasitəli olmayan qarşılıqlı təsiri zamanı başlıca olaraq, informasiya və telekommunikasiya texnologiyalarının tətbiqi ilə həyata keçirilən təhsil texnologiyaları başa düşülür" (5, s. 161).

Pandemiya dönəmində təhsil bir sıra sinxron və asinxron öyrənmə proqramları və peyk, video, audio qrafik, kompüter, mültimedia texnologiyası kimi elektron vasitələrin (Zoom, Skype, Microsoft Teams, Moodle və b.) vasitəsilə internet üzərindən həyata keçirilir. Distant təhsillə bağlı fikirlər birmənalı olmasa da, mövcud şəraitdə ən optimal olduğu qəbul edilir. Belə ki, təhsilverənlər və təhsilalanlar bu prosesi evi tərk etmədən həyata keçirir. V.N. Karandaşevin də yazdığı kimi, "distant təhsilin məqsədi öyrənənə bilavasitə yaşadığı, işlədiyi yaxud müvəqqəti yaşadığı yer üzrə öyrənmə imkanları təqdim etməkdir" (5, s. 161).

İstərsə əyani, istərsə də distant formada olmasından asılı olmayaraq, psixologiyanın tədrisi prosesində müəyyən çətinliklər özünü göstərir. Şübhəsizdir ki, distant təhsildə istifadə olunan bəzi texnologiyalar (məsələn, keyslər) əyani təhsil prosesində artıq səmərəli şəkildə istifadə olunurdu. Keys texnologiyası, internet-texnologiya və telekommunikasiya texnologiyası əsas

distant təhsil texnologiyaları sayılır (5).

Təhsil Nazirliyi tərəfindən məktəblilərin təhsildən geri qalmaması üçün tele-dərslər hazırlanmış və mütəmadi televiziya vasitəsilə yayımlanmışdır. Eyni zamanda qeyd etmək zəruridir ki, psixologiya bizim ölkədə bəzi ölkələrdən (məsələn, Rusiyadan) fərqli olaraq, məktəblərdə tədris olunmur. Bu, nəzərə alınması vacib məqamlardan biridir. Belə ki, Rusiya məktəblərində psixologiya iki əsas tip proqram (predmetyönlü və şəxsiyyətyönlü) istifadə edilərək öyrədilir (5; 4).

Predmetyönlü proqramın məzmununu elmi-psixoloji biliklər, o cümlədən onlardan praktik istifadə edilməsi bacarığı təşkil edir. Proqram həm elmi, həm də praktikyönlü ola bilər. Bu proqram çərçivəsində əsas təlim metodları hekayə, müzakirə və praktiki mümarisələrdir. Bilik və bacarıqların mənimsənilməsi qiymətləndirilə bilir. Şəxsiyyətyönlü tip proqramlarda psixologiya dərsləri şagirdin inkişafına istiqamətlənmiş biliklər sistemi kimi çıxış edir. Bu proqramlar daxilində nəzəri psixoloji biliklərin öyrədilməsi bilavasitə vəzifə kimi qarşıda durmur. Əsas vəzifə praktik psixoloji bacarıqların formalaşdırılması və şagirdlərin şəxsi inkişafıdır.

Müzakirə, praktiki mümarisələr və oyunlar əsas təlim metodlarıdır. Bu proqram daxilində dərslərin keçirilməsinin ən geniş yayılmış forması psixoloji treninqdir. Bu proqram çərçivəsində qiymətləndirmə həyata keçirilmir. Şəxsiyyətyönlü proqram çərçivəsindəki psixologiya dərsləri predmetyönlü proqram daxilindəki dərslər kimi məcburi və ya fakültativ deyil, dərsdənkənar tədbir xarakteri daşıyır və könüllü iştiraka əsaslanır. Deməli, məktəblərdə dərsdənkənar tədbir kimi psixologiyanın tədrisi məsələsinə gəldikdə, qeyd edə bilərik ki, bizim məktəblərdə də əslində psixologiya tədris olunur. Başqa sözlə, bizim məktəblərdə psixologiyanın "tədrisi" əsasən şəxsiyyətyönlü tip proqram daxilində sanki həyata keçirilir.

Bu deyilənlərə əlavə olaraq, xüsusilə qeyd etməyi zəruri bilirik ki, məhz proqram tiplərinin öncədən müəyyən edilməsi iki müxtəlif istiqamətdə dərslik və dərs vəsaitlərinin hazırlanmasını nəzərdə tutur. Rusiyada bu yöndə müvafiq işlər görülmüşdür (5; 4). Gələcəkdə bu istiqamətdə ölkəmizdə də işlərin görüləcəyi heç şübhəsizdir.

Psixologiyanın tədrisinin özünəməxsus çətinlikləri olduğunu öncə də qeyd etmişdik. Bu çətinliklər həm psixoloji biliyin özünəməxsusluğuna, həm də onun mənimsənilməsi xüsusiyyətlərinə aid olur (3).

O cümlədən, psixologiyanın bizim ölkədə, əsasən, ali məktəblərdə tədris olunduğunu nəzərə alsaq, adı çəkilən fənnə tələbələrin də münasibəti önəmlidir. İstər motivasiya anlamında, istərsə də, gələcəkdə optimal müəllim olma ehtimalı baxımından ixtisas tələbələrinin psixoloji biliklərlə yanaşı, psixologiyanın tədrisi metodikasını da bilməsi xüsusi önəm kəsb edir. V.S. Qerasimova qeyd edir ki, tələbələr metodik biliklərin öyrənilməsi zəruriliyini həmişə dərk etmədikləri kimi, metodik təfəkkürün özünəməxsusluğunu və xüsusi olaraq onun formalaşdırılmasının zəruriliyini də başa düşmürlər (3). Eyni müəllif yazır ki, psixoloji bilik psixologiyanın tədrisi prosesində nəzərə alınmalı olan spesifik xüsusiyyətlərə malikdir (3):

1. Psixoloji elmin predmetini yalnız nisbətən sabit olan şəxsiyyət təşkil edir; o, daima dəyişdiyi üçün onun dərki dəqiqliklə mümkün deyil.
2. Psixoloji elmin idrakı prosesi dialojidir, belə ki, həm idrak predmeti, həm də dərk edən tərəf şəxsiyyətin özüdür.
3. Psixoloji hadisələrin idrakı prosesi ancaq məntiqi deyil, həmçinin obrazlı və əyaniəməli təfəkkürü, o cümlədən inkişaf etmiş təxəyyülü tələb edir
4. Psixoloji biliyi müəyyən ümumiləşdirilmiş struktur şəklində təqdim etmək olar, hansı ki, özlüyündə hansısa elmi verilənі təmsil etmir, sadəcə metodik məqsədlər üçün uyğundur.

Bəs onda sual doğur ki, qarşıda qoyulan vəzifələrə cavab verməsi adına psixoloji biliyin

hansı cəhətləri tədris prosesində ön plana çıxmalıdır. Müşahidələr göstərir ki, tələbələrin əksəriyyəti öyrəndiyi psixoloji bilikləri sistemləşdirməkdə çətinlik çəkməklə yanaşı, həmin biliklərin gündəlik həyatdakı ekvivalentlərini tapmaqda da çətinlik çəkirlər. Suala cavab olaraq, qeyd edə bilərik ki, istənilən psixoloji hadisənin nisbətən tam xarakteristikası üçün aşağıdakıları işıqlandırmaq zəruridir (3, 9):

— anlayışlar sistemini (tezaurus, tərif, təsvir);
— psixoloji hadisələrin funksiyaları (təyinat);
— mexanizmlər (hadisə necə yaranır və fəaliyyət göstərir);
— növlər (təsnifatlar);
— qanunauyğunluqlar (qanunlar, xüsusiyyətlər, xassələr);
— fərdi, yaş və cins xüsusiyyətləri;
— inkişaf və formalaşma qanunauyğunluqları (ontogenez və ola bilsin, filogenezdə);
— pozuntular;
— psixoloji nəzəriyyələr;
— öyrənmə metodları.

Bildiyimiz kimi, ölkəmizdə psixologiyanın tədrisi prosesində istifadə olunan dərsliklər və dərs vəsaitləri əsasən məhz bu istiqamətlərdə izah üzərinə tərtib olunmuşdur. Bu da, təəccüblü deyildir, belə ki, uzun illər Azərbaycan psixologiyası sovet psixologiyasından bəhrələnmişdir. Bu proses bu gün də davam edir. V.S. Qerasimovanın fikrincə, "psixoloji biliyin strukturunun anlaşılması psixoloji gerçəkliyin onun bütün əlaqə və münasibətləri fonunda tamlığını özü üçün müəyyən etmədə tələbəyə kömək edə bilər" (3, s. 9). Psixologiyanın tədrisi prosesində dərslərin planlaşdırılması və dərs proqramlarının tərtibi zamanı yuxarıda qeyd olunan sxem aktual olaraq istifadə olunur.

Digər qeyd etməli olduğumuz məsələ ondan ibarətdir ki, ali təhsil pillələrində xüsusi olaraq "Psixologiyanın tədrisi metodikası" fənni keçilir. Həmin fənnin predmetini psixologiyanı öyrənməyin metodları, formaları və vasitələri, onların spesifikası və xüsusiyyətləri təşkil edir (8). Müəllifin fikrincə, kursun vəzifələri aşağıdakılardan ibarətdir:

1) tələbələrdə psixologiyanın tədrisinin nəzəri əsasları və spesifikası haqqında təsəvvür formalaşdırmaq;

2) tələbələrdə pedaqoji fəaliyyətin həyata keçirilməsinin, onun idarə edilməsinin vərdiş və bacarıqlarının formalaşmasına, həmçinin onların pedaqoji qabiliyyətlərinin inkişafına şərait yaratmaq;

3) tələbələrin mütəxəssis-psixoloq, psixologiya müəllimləri kimi peşəkar Mənlik şüurunun qurulması, şəxsi inkişafı üçün şəraitin yaradılması.

"Əgər ki, gələcək mütəxəssislərin – praktik psixoloqların yaxud psixoloq tədqiqatçıların peşə əhəmiyyətli keyfiyyətlərinin formalaşması üçün peşəkar-psixoloji mövqenin qurulmasına, şəraitin yaradılmasına dəstək bu gün ali məktəbin prioritet vəzifəsi timsalında qəbul olunursa, psixologiya müəllimlərinin peşəkar hazırlığının özünəməxsusluğu, O.M. Krasnoryadtsevaya görə, çox zaman peşəkar refleksiyanın "periferiyası"nda qalır" (6). İ.V. Moloçkova yazır ki, gələcək ixtisasçı müəllim həm psixologiya elminin, həm də təhsil sisteminin müasir inkişafı istiqamətləri haqqında, psixologiyanın ali məktəblərdə tədrisi məqsədləri, həmçinin şəxsiyyətin təlim prosesində inkişafının psixoloji qanunauyğunluqları haqqında məlumatlı olmalıdır.

İ.V. Moloçkovanın əsərində V kurs tələbələri ilə keçirdikləri mikrotədqiqatı haqqında məlumat verilir (6). Fikrimizcə, həmin tədqiqatın nəticələri qarşıya qoyduğumuz problemin mahiyyətini anlamaq adına önəmli ipucları verir. Tədqiqatda tələbələrə ali məktəbdə psixologi-

yanın tədrisi problemləri ilə əlaqəli olan aşağıdakı beş sual verilmiş və həmin suallara verilən cavablar fonunda münasibət təhlil olunmuşdur.

I – Ali məktəbdə psixologiya nə üçün tədris olunmalıdır?

II – Ali məktəbdə təhsil müddətində təlim informasiyasından hansı daha dəyərli olub?

III – Psixologiyanı necə tədris etmək lazımdır?

IV – Psixologiya müəllimi hansı keyfiyyətlərə malik olmalıdır?

V – Məhz bu gün psixologiya müəllimləri rolunda çıxış edə bilmələri üçün bizim tələbələrə nə çatışmır?

Müəyyən edilmişdir ki, birinci suala cavab olaraq məqsədlər qruplar şəkildə dəyərləndirilərsə, sınanılanların 40%-i maarifləndirməni, 50%-i özünüdərki, 52%-i ünsiyyətdə səriştəliliyin artırılmasını, 31%-i şəxsi inkişafı, 6%-i isə peşə meylini qeyd etmişlər. İkinci suala münasibətdə tələbələrin əksəriyyəti (73%) üçün bu, praktik xarakterli informasiya olmuşdur. Üçüncü suala tələbələrin 64%-i cavab vermişdir ki, psixologiyanı maraqla, əyləncəli, qeyri-standart və mütləq müəllim tərəfindən maraqlandırılmış şəkildə tədris etmək lazımdır. Növbəti suala cavab qismində müəyyən edilmişdir ki, psixologiya müəllimi birincisi, ünsiyyətdə səriştəli (22%), ikincisi, şəxsi cazibədarlığa (18%), üçüncüsü, natiqlik sənətinə sahib (14%), dördüncüsü, öz bilik sahəsində səriştəli (13%), beşincisi, şəxsi yetkinliyə malik (11%) olmalıdır. Həm də bu zaman ağıllı (9%), kreativ (8%), aktiv (5%) və praktik fəaliyyət təcrübəsinə malik (2%) olsa da yaxşı olar. Nəhayət, üzə çıxarılmışdır ki, təxminən tələbələrin yarısına təcrübə, bilik, özünəinam çatışmır, hər dördüncü tələbə isə hesab edir ki, onda natiqlik qabiliyyəti, "harizma" yaxud hansısa digər şəxsi keyfiyyətlər də çatışmır. Verilən tədqiqat psixologiyanın tədrisinə üstünlük təşkil edən nöqteyi-nəzərləri ortalığa çıxarmağa imkan vermişdir.

B.T. Badmayevin fikrincə, tələbələr tərəfindən istənilən elmin öyrənilməsi həyati hadisələrə, praktik məsələlərə elmi mövqedən yanaşmağı öyrənmək məqsədinə tabedir (2). İ.V. Moloçkovanın qeyd etdiyi kimi, psixologiyaya münasibətdə bu, o deməkdir ki, tələbə psixologiyanı insan psixologiyasında elmi bələdləşmə qazanmaq məqsədilə öyrənməlidir. Bu, real adamların işlərində, əməllərində və davranışında onun təzahürlərinin xüsusiyyətlərini başa düşmək və izah etmək üçün gərəklidir, nəticədə bu əsasda onlarla gündəlik praktikada effektiv qarşılıqlı təsir öyrənilir (6).

Psixologiyanın tədrisi prosesində qarşılaşılan digər problem təlim kursunun işlənilməsi texnologiyası ilə əlaqəlidir. V.N. Karandaşev təlim kursunun keçirilməsinə hazırlıq prosesində müəllimin aşağıdakı mərhələləri izləməsini məqsədəuyğun sayır (5):

1. Dərsliklərin, dərs vəsaitlərinin və digər materialların tələbələr tərəfindən mütaliə edilməsi üçün seçilməsi;
2. Kursun məzmununun seçilməsi;
3. Təlim məqsədlərinin qoyuluşu;
4. Kursun işçi proqramının işlənilib hazırlanması;
5. Məşğələlərin tematik planının hazırlanması, dərs məşğələlərinin və tələbələrin müstəqil işlərinin planlaşdırılması;
6. Kursun keçirilməsi formatının işlənilib hazırlanması;
7. Fənn üzrə bilik və bacarıqların qiymətləndirilməsi meyarlarının sisteminin işlənilib hazırlanması;
8. Ayrıca dərs məşğələlərinin planlaşdırılması və konspektlərin tərtib edilməsi;
9. Tələbələr tərəfindən kursun qiymətləndirilməsi üçün sorğu vərəqinin işlənilib hazırlanması.

Yuxarıda qeyd edilən addımlar ardıcıllığı fikrimizcə, psixologiya müəllimləri üçün fənnin

tədrisi prosesinin təşkili zamanı yardımçı ola bilər.

Digər, heç də az əhəmiyyətli olmayan məsələ psixologiyanın kim tərəfindən tədris edilməsi problemidir. Beynəlxalq təcrübə göstərir ki, psixologiyanın tədrisi həm psixoloqlar, həm də pedaqoqlar tərəfindən həyata keçirilir (5). Birinci halda psixoloqların pedaqoji hazırlığı, ikinci halda isə pedaqoqların psixoloji hazırlığı vəzifəsi aktual olmağa başlayır. Fikrimizcə, psixologiyanı baza təhsilli ixtisasçıların tədris etməsi ən azından bu istiqamətdə mövcud problemlərin azalmasına gətirib çıxara bilər.

Günümüzdə psixologiyanın distant formada tədrisi bu istiqamətdə hansı yönlərdə problemlərin olmasını xüsusilə aşkarlamaqda yardımçı oldu. Məsələn, psixologiya ilə əlaqəli internet-resursların ana dilimizdə az olması, var olan internet-resursların da kifayət qədər keyfiyyətli olmaması və bu kimi məsələlər daha çox qarşılaşdığımız problemlərdəndir. Deməli, nəzərə alsaq ki, distant təhsil həyatımızın bir parçası olmağa başlayıb, onda bu istiqamətdə işlərin görülməsi perspektivi müəyyən edən prioritet məsələlər olmalıdır.

**Məqalənin aktuallığı.** Psixologiyanın tədrisi məsələləri istər nəzəri, istərsə də praktiki baxımdan çox böyük elmi-nəzəri və praktik aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə psixologiyanın tədrisi məsələləri həm konseptual anlamda, həm də distant təhsil nöqteyi-nəzərindən təhlil edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Psixologiyanın tədrisi məsələləri ilə bağlı perspektivlərin nəzərdən keçirilməsi elmin tədrisi metodikalarının təkmilləşdirilməsi baxımından praktik əhəmiyyət kəsb etməklə, innovativ texnologiyaların da tətbiqi imkanlarını açmış olur.

## Ədəbiyyat

1. Pedaqogika və psixologiya fənninin tədrisinə dair metodiki vəsait. Bakı: Sabah, 2004, 224 s.

2. Бадмаев Б.Ц. Методика преподавания психологии: Учеб. Пособие для студ. высш. учеб. заведений. М.: Гуманит. изд. Центр ВЛАДОС, 2001, 304 с.

3. Герасимова В.С. Методика преподавания психологии: Курс лекций. М.: Ось-89, 2007, 144 с.

4. Калистратова Т.Д., Калистратов П.Ю. Преподование психологии в средних учебных заведениях: Учебное пособие (электронное версия). Саратов: 2017, 53 с.

5. Карандашев В. Н. Методика преподавания психологии: Учебное пособие. СПб.: Питер, 2006, 250 с: ил.

6. Молочкова И.В. Методологические и методические аспекты психологии как учебного предмета в школе и в вузе: Учебное пособие. Челябинск: Издательство ЮурГУ, 2008, 125 с.

7. Молочкова И.В. Методологические аспекты проектирования образовательного процесса в современном вузе // Вестник ЮУрГУ, № 29, 2011, с. 42-46

8. Окулич Н.А. Учебно-методический комплекс по учебной дисциплине «Методика преподавания психологии» для специальности Психология / Н.А. Окулич. Брест: БрГУ, 2014, 224 с.

9. Панкратова Т.М. Методика преподавания психологии: Учебное пособие / Т.М. Панкратова; Яросл. гос. ун-т им. П.Г. Демидова. 2-е изд., испр. и доп. Ярославль : ЯрГУ, 2015, 112 с.

**С.М. Гафарова**

## Вопросы преподавания психологии: проблемы и перспективы


### Резюме

В статье рассматриваются проблемы преподавания психологии в контексте классического и дистанционного обучения. Отмечены особенности психологического знания, которые необходимо учитывать в процессе обучения психологии. Особо освещены вопросы преподавания психологии в высших учебных заведениях. При преподавании психологии подчеркивается важность подготовки профессиональных психологов как исследователей и практиков, так и будущих учителей психологии. В статье также рассматриваются перспективы дистанционного обучения.


**S.M. Gafarova**

## The issues of teaching psychology: problems and perspectives


### Summary

The article deals with the problems of teaching psychology in the context of classical and distance learning. The features of psychological knowledge that must be taken into account in the process of teaching psychology are noted. The issues of teaching psychology in higher educational institutions are especially highlighted. When teaching psychology, the importance of training professional psychologists, both researchers and practitioners, and future teachers of psychology, is emphasized. The article also discusses the perspectives of distance learning.


**Redaksiyaya daxil olub:** 10.02.2021